**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# UİNSTON ÇÖRÇİLLİN MEMUAR İRSİ DÖVRÜN BƏDİİ-SƏNƏDLİ SALNAMƏSİNİN YARADILMASI TƏCRÜBƏSİ KİMİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Türkanə Tofiq qızı İbrahimova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Qərbi Kaspi Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, dosent<br>**Nigar Vəliş qızı İsgəndərova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Leyli Əliheydər qızı Əliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Səkinəxanım Fazil qızı Vəliyeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | __________ | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi: | __________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri: | __________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya, o cümlədən ingilis ədəbiyyatının öyrənilməsi, tərcüməsi və tədqiqi çağdaş Azərbaycan ədəbiyyatının və ədəbiyyatşünaslığının zənginləşməsi yolunda prioritet istiqamətlərdən biridir. Təkrarən müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikasında aparılan yenilikçi islahatlar ölkənin inkişaf tempi və dinamikasında məxsusi yeri ilə seçilir. Bu baxımdan Azərbaycanla əməkdaşlığı prioritet sahələr üzrə durmadan inkişaf edən Böyük Britaniyanın [1] yaxın tarixində silinməz izlər qoymuş II Dünya müharibəsinin ağır sınaqlarından ingilislərin, britaniyalıların xilasını təmin etmiş siyasətçi və ədib Uinston Spenser Çörçillin (Winston Spencer Churchill, 1874-1965) memuar irsinin elmi araşdırılması dövlətlər arasında geopolitik, etnomental platformada dialoqun uğurla aparılmasında mühüm əhəmiyyət və aktuallıq kəsb edir.

Ədibin memuar irsi Britaniya ali mentallığının ümumiləşdirilmiş obrazı, nümunə rol-modeli, eyni zamanda qarşıya qoyulan hədəf onun zəngin yaradıcılığı haqqında aydın təsəvvür yaradır. Uinston S. Çörçill yaradıcılığının, o cümlədən, memuar irsinin tədqiqi qarşılıqlı əməkdaşlıq çevrəsində Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin ifadəsi ilə desək, "*strateji tərəfdaşlıq yönündə irəliləyən*" münasibətlərimizin[2] daha da dərinləşməsi yolunda mühüm əhəmiyyəti ilə seçilir.

Tədqiqat işinin aktuallığını şərtləndirən mühüm cəhətlərdən biri də Uinston S. Çörçillin memuar irsi əsasında ortaya çıxan tarixi lider fenomeninin Azərbaycan reallığında mövcud olan paralelliyinin müəyyənləşdirilməsidir. Böyük Britaniya tarixinin ən çətin dövrlərindən birində ölkəsini zəfərə aparan Uinston S. Çörçill Azərbaycan xalqının ən həlledici tarixi mərhələsində idarəçilik

---

[1] Azərbaycan Birləşmiş Krallıq ilə dostluq və əməkdaşlığa xüsusi əhəmiyyət verir. – Prezident İlham Əliyev: [Elektron resurs]. URL: https://aztv.az/az/news/18091/azerbaycan-birlesmis-kralliq-ile-dostluq-ve-emekdasliga-xususi-ehemiyyet-verir-prezident-ilham-eliyev

[2] İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib: [Elektron resurs] / – 09 mart – 2022. URL: https://president.az/az/articles/view/55588

missiyasını yerinə yetirmiş Ümummilli Lider Heydər Əliyev fenomeni ilə eyni nəhəngliyin sahibidir.

Uinston S. Çörçillin memuar irsinin tədqiqi memuar janrının eqo-sənəd ədəbiyyatı çevrəsindəki rolu və mövqeyinin müəyyənləşdirilməsinə xidmət edir.

Tədqiqatın aktuallığını şərtləndirən digər amil isə Uinston S. Çörçillin memuar irsinə həsr olunan araşdırmada Azərbaycan elmi-ədəbi fikri üçün müəyyən yenilikləri özündə ehtiva edən ədibin memuar irsinin sistemli şəkildə öyrənilməsidir.

Uinston S. Çörçillin elmi-bədii əsərləri ABŞ, Avropa və rus ədəbi tənqidinin diqqətindən kənarda qalmamışdır. Ədibin siyasi və bədii irsi ilə bağlı Avropa, Amerika və rus elmi fikrində Addison P., Məlkolm M., Mur R.C., Morqan T., Fussel Pol, Reyzor E.L., Reynolds D., Zoller K.C., Medvedev D.L., Truxanovski B.[3] və başqalarının əsərlərində memuar ədəbiyyatı ilə əlaqədar ciddi elmi fikir və mülahizələrə rast gəlmək mümkündür.

Azərbaycan ədəbiyyatşünaslığında ədibin yaradıcılıq yolu, memuar irsi və bu kontekstdə siyasi fəaliyyəti haqqında

---

[3] Addison, P. Churchill on the Home Front 1900–1955 / P.Addison. – L.: Faber & Faber, – 2013. – 518 p.; Addison, P. Sir Winston Leonard Spencer. // The Oxford Dictionary of National Biography/ P.Addison. – Oxford: Oxford University Press, – 2014. – 298 p.; Malcolm, M. Churchill the Biographer and Historian. /Charles Eade (ed.), Churchill: By His Contemporaries / M.Malcolm. – London: Hutchinson, – 1955. – 237 p.; Moore, R.J. Churchill, Cripps, and India, 1939–1945 / R.J.Moore. – Oxford: Clarendon, – 1979. – 355 p.; Morgan, T. Churchill: Young Man in a Hurry: 1874–1915 / T.Morgan. – N.Y., – 1982. – 267 p.; Fussel, Paul. The Great War and Modern Memory / Paul, Fussell. – Oxford: OUP, – 1975. – 363 p.; Rasor, E.L. Winston S. Churchill, 1874–1965: A Comprehensive Historiography and Annotated Bibliography / E.LRasor. – West Port, Connecticut: Greenwood Press, – 2000. – 570 p.; Reynolds, D. Churchill's Writing of History: Appeasement, Autobiography and "The Gathering Storm" // – Transactions of the Royal Historical Society, Sixth Series, – 2001. №11, – p. 221-247; Zoller, C.J. Annotated Bibliography of Works about Sir Winston S. Churchill / C.J.Zoller. – New York: M.E.Sharpe, – 2004. – p.3-132; Медведев, Д.Л. Уинстон Черчилль. (Серия: Жизнь замечательных людей) / Д.Л.Медведев. – М.: Молодая гвардия, – 2022. – 489 с.; Медведев, Д.Л. Уинстон Черчилль. Оратор. Историк. Публицист. Против течения. 1929-1939 / Д.Л.Медведев. – М.: РИПОЛ классик, – 2017. – 782 с.; Трухановский, В.Г. Уинстон Черчилль. 4-е изд., доп. / В.Г.Трухановский. – М.: Международные отношения, – 1989. – 452 с. və b.

ədəbiyyatşünaslardan V.Quliyev və Ə.Abdinovun[4] ümumi istiqamətli yazıları istisna olmaqla, onun elmi-ədəbi memuar irsi haqqında ayrıca elmi araşdırma aparılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** XX əsr Böyük Britaniya siyasi-ədəbi fikrinin tanınmış simalarından biri Uinston S. Çörçillin çoxşaxəli memuar yaradıcılığı tədqiqat işinin obyektini təşkil edir.

Tədqiqatın predmeti isə ədibin memuar irsində XX əsrdə geosiyasi tarixi gerçəkliyin bədii inikasının çoxcəhətliliyinin öyrənilməsi, avtorefleksiyada müəllif kimliyinin və şəxsiyyətinin psixo-emosional ifadə palitrası ilə inikasının təsbiti, onun memuar yaradıcılığının tarix salnaməçiliyinin bədii təhkiyə formatında reallaşdırma spesifikasının müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Uinston S. Çörçill ingilis, Britaniya ədəbiyyatında o unudulmuş yazıçılardandır ki, onun yaradıcılığı tədqiqat müstəvisində elmi maraq doğurur. Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd dünyanın XX əsrdə geosiyasi təkamül yolunda Uinston S. Çörçillin yaradıcılığında memuar ədəbiyyatının dövrün bədii-sənədli salnaməsinin yaradılması təcrübəsini öyrənməkdir.

Tədqiqat işində əsas məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinə diqqət yetirilmişdir:

– Uinston S. Çörçillin bədii yaradıcılığının tədqiqat tarixini araşdırmaq, ədibin əsərlərinin müxtəlif dövrlərdə və ayrı-ayrı dövlətlərin, o cümlədən fərqli siyasi mövqeyi olan ölkələrin ədəbiyyatşünasları, ədəbiyyat tənqidçiləri tərəfindən hansı rakursda və obyektiv dəyərləndirmə formatında araşdırılmasının müəyyənləşdirilməsi;

– Britaniya, eləcə də Azərbaycan ədəbiyyatında memuar ədəbiyyatının dəyərləndirilməsi kontekstində Uinston S. Çörçillin memuar irsinin dövrün bədii-sənədli salnaməsinin yaradılmasında ədib missiyasının təyin edilməsi;

– Heydər Əliyev və Uinston S. Çörçill fenomenlərinin

[4] Quliyev, V. Çörçill S.Uinston: Ədəbiyyatda Nobel mükafatı laureatları / V.Quliyev. – Bakı: “Kitab aləmi” Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2009. – 384 s.; Abdinov, Ə. Uinston Çörçill [Elektron resurs] / URL: https://kompartiya.wordpress.com/2017/06/28/uinston-corcill/

memuaristika probleminə münasibətdə sərgilədikləri yanaşma paralelliyini təsbit edib, iki dahi şəxsiyyətin memuar ədəbiyyatının tarixin bədii-sənədli salnaməçiliyindəki münasibətin fərqliliyinin dəyərləndirilməsi;

– Uinston S. Çörçillin memuar-bioqrafik janrda yazdığı əsərlərinin materialları bazasında memuar janrının və bioqrafik janrın oxşar, fərqli cəhətlərini təyin edib, onların definisiyasını problemləşdirən məqamlara elmi aydınlığın gətirilməsi;

– Uinston S. Çörçillin memuarlarında müəllif təhkiyəsinə təsir edən, ədibin fərdi dünya mənzərəsini şərtləndirən və bilvasitə tarixi reallıqların avtonarrator öngörüşü və ya fərdi yanaşma dəyərləndirməsinə yol açan psixoemosional faktorların müəyyənləşdirilməsi;

– Ədibin "Mənim erkən həyatım" əsəri üzrə memuar və avtobioqrafik janrların definisiyasının bir çox nəzəri aspektlərinin təhlili çevrəsində adı çəkilən əsərin janr spesifikasının faktlar əsasında təsbit edilməsi;

– Uinston S. Çörçillin "Mənim erkən həyatım" memuar-avtobioqrafik əsərində uşaqlıq-gənclik travmalarının, zadəganlıq davranış konfiqurasiyasının müəllif təhkiyəsindəki inikas səviyyəsinin təyin edilməsi;

– Ədibin memuar yaradıcılığına atası Rendolf Çörçillin təsirinin müəyyənləşdirilməsi və onun "Mənim erkən həyatım", eləcə də eyniadlı "Rendolf Çörçill" memuar ədəbiyyatı nümunələri əsasında "Ata" konseptinin bədii reallaşma spesifikasının elmi ümumiləşdirməsinin aparılması;

– Uinston S. Çörçillin bəşər övladının rifahına yönəlmiş, müharibə qızışdırıcılarına nifrət üzərində köklənmiş memuar janrının mükəmməl nümunəsi olan "İkinci Dünya müharibəsi" adlı əsərinin ideya-bədii xüsusiyyətlərinin təyin edilməsi, həmin əsərin dünya siyasi-ədəbi fikrində şöhrət qazandığının səbəblərinin araşdırılması;

– Ədibin əsərlərində "cəmiyyət – siyasət – müharibə – insan" konsepsiyasının məzmununun, sosial mahiyyətinin elmi şərhinin verilməsi və bədii-psixoloji təhlilin prinsip, üsul və metodlarının, sənətkarlıq, forma-üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqat metodları.** Araşdırmada müasir dünya və Azərbaycan ədəbiyyatşünaslığının elmi-nəzəri təcrübəsinə istinad olunmuş,

müqayisəli-tipoloji, eləcə də təsviri və bioqrafik metoddan, real tarixi hadisələrlə onların memuar təhkiyəsindəki təqdimatı ilə qarşılaşdırma kontekstində komparativist metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– Memuar yaradıcılığı ilə ədəbiyyat sahəsində Nobel mükafatına layiq görülmüş Uinston S. Çörçill ciddi bədii ədəbiyyat janrı kimi qəbul edilməyən memuar janrının yeni keyfiyyət mərhələsinə keçidinin təmin edilməsini əsaslandırmışdır.

– Müasirləri və bioqrafları tərəfindən birmənalı şəkildə etiraf edilən “Rendolf Çörçill faktoru”nun Uinston S. Çörçillin bədii yaradıcılığına təsiri indiyədək təhlil həllini tapmasa da, onun memuar-bioqrafik yaradıcılığında “Ata” konsepti mühüm yer tutmuş, avtonarratorun obyektivlik oriyentirində dominant rol oynamışdır.

– Uinston S. Çörçill və Heydər Əliyev şəxsiyyəti Britaniya və Azərbaycan tarixində qoyduğu silinməz izlərlə yanaşı, dünya siyasi arenasında böyük nüfuzu ilə ortaqlıq kəsb edir.

– Memuar və avtobioqrafik janrlar arasında definisiya (tərif) problemi Uinston S. Çörçillin “Mənim erkən həyatım” adlı əsəri əsasında onun hər iki janr komponentlərinin uğurlu sintezindən bəhrələndiyi təsbit olunur.

– Uinston S. Çörçillin “İkinci Dünya müharibəsi” adlı altı cildlik tarixi memuarının, eləcə də memuar janrında yazdığı digər əsərlərinin “Çörçill və zamanın reallığı” kontekstindən araşdırılması ədibin salnaməçilik missiyasında “İnsan” və “Müharibə” konseptlərinin bədii həllinə xüsusi diqqət yetirdiyini söyləməyə əsas verir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə Uinston S. Çörçillin memuar irsinin ideya-məzmun və üslub xüsusiyyətlərinin araşdırılması, ədibin psixo-emosional kimliyinin bədii təhkiyə formatında inikas səviyyəsinin müəyyənləşdirilməsi, eləcə də memuar ədəbiyyatının tarixi reallığı obyektiv əks etdirmək baxımından tədqiqat müstəvisinə gətirilmişdir. Tədqiqat işində memuar irsinin ənənəvi yanaşma üsulları və müasir yenilikçi tədqiqi prizmasından çıxış edərək ədibin memuar irsində tarixi fakt və gerçəkliyin dövrün bədii salnaməsinin yaradılmasının autentik (gerçək, güvənlik) səviyyəsinin müəyyənləşdirilməsi dissertasiyanın elmi yeniliyi hesab edilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiyanın nəzəri əhəmiyyəti onun elmi müddəa və nəticələrinin memuar ədəbiyyatı barədə yazılacaq tədqiqat işlərində istifadə və istinad meyarları ilə bağlı ola bilər.

Tədqiqat işinin mətni və nəzəri müddəaları tədris prosesində, xüsusilə universitetlərin filologiya fakültələrində, dərs vəsaitlərinin hazırlanmasında istifadə oluna bilər.

Respublikanın ali məktəblərinin filologiya fakültələrində tədris olunan Xarici ölkələr ədəbiyyatı dərsliklərinin hazırlanmasında, məşğələlərin aparılmasında tədqiqat işindən istifadə olunması onun praktik əhəmiyyətinin əsasını təşkil edir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticə və müddəaları məqalə və tezis şəklində Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil olan elmi məcmuələrdə, Respublika və Beynəlxalq səviyyəli konfrans və simpozium materiallarında əksini tapmışdır. Ümumilikdə müəllifin 10 məqaləsi, 4 tezisi çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Qərbi Kaspi Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi – 6 səhifə, 9 423 işarə, I fəsil – 36 səhifə, 73 267 işarə, II fəsil – 45 səhifə, 91 083 işarə, III fəsil – 41 səhifə, 80 882 işarə, Nəticə hissəsi – 2 səhifə, 3 098 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 257 753 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqat mövzusunun işlənmə dərəcəsi, eləcə də tədqiqat işinin obyekti və predmeti haqqında məlumat verilir, araşdırmanın metodları, məqsəd və vəzifələri, o cümlədən müdafiəyə çıxarılan elmi müddəalar açıqlanır.

Dissertasiyanın **"Uinston S. Çörçillin əsərlərinin tədqiqi və nəşri tarixindən**" adlanan I fəsli üç paraqrafdan ibarətdir. ***"Ədibin memuar irsi Qərb və Şərq araşdırmalarında"*** adlı birinci paraqrafda Uinston S. Çörçillin memuar ədəbiyyatının tədqiq tarixi, diqqəti çəkən məsələlər haqqında təhlil və şərhlər təqdim edilir. Qeyd olunur ki, ədibin zəngin yaradıcılıq yolunu, onun ictimai-siyasi, ədəbi görüşlərini özündə təcəssüm etdirən "Savrola", "Mənim həyatım" "Malakand hərbi hissəsinin tarixi", "Çay müharibəsi", "Dünya böhranı", "İngilisdilli ölkələrin tarixi", "İkinci Dünya müharibəsi" və digər əsərləri dövründə geniş oxucu auditoriyasının məhəbbət və rəğbətini qazanmışdır. Bununla yanaşı Uinston S. Çörçill bir sıra esselər və məqalələr müəllifi kimi də tanınmışdır. Qərb – Şərq tarixşünaslığında və ədəbiyyatşünaslığında onun həyat və yaradıcılığına olan ciddi elmi maraq müasir günümüzədək davam edir. 2000-ci ildə Amerika alimi E.L.Reysorun araşdırmasında ictimai-siyasi xadim və ədibin fəaliyyəti ilə bağlı 3099 araşdırma, 684 bədii əsərin yazıldığı qeyd olunmuşdur[5]. Onun elmi-bədii irsinin tədqiqatçılarından biri K.J.Zoller dahi siyasətçi və yazıçı haqqında 929 kitabın yazıldığını, dövri mətbuatda 646 məqalənin çap edildiyini, yaradıcılığı ilə bağlı isə 60 dissertasiyanın yazılıb müdafiə edildiyini vurğulamışdır. Bu statistik məlumat çörçillşünaslıqda 2012-ci ilə qədərki vəziyyəti əhatə edir və elmi araşdırmaların böyük əksəriyyətinin Şimali Amerika universitet və kolleclərinin payına düşdüyü göstərilir[6].

Ədibin memuar irsinin tədqiqində xüsusi yeri və çəkisi olan ingilis tədqiqatçısı D.Reynolds araşdırmalarında [7] Uinston S. Çörçillin "İkinci Dünya müharibəsi" çoxcildlik memuarlarının

---

[5] Rasor, E.L. Winston S. Churchill, 1874–1965: A Comprehensive Historiography and Annotated Bibliography / E.LRasor. – West Port, Connecticut: Greenwood Press, – 2000. – p.53.

[6] Zoller, C.J. Annotated Bibliography of Works about Sir Winston S. Churchill / C.J.Zoller. – New York: M.E.Sharpe, – 2004. – p.127; p.132.

[7] Reynolds, D. Churchill's Writing of History: Appeasement, Autobiography and "The Gathering Storm" // – Transactions of the Royal Historical Society, Sixth Series, – 2001. №11, – p.221-247; Reynolds, D. In Command of History: Churchill Fighting and Writing the Second World War / D.Reynolds. – London: Allen Lane, – 2004. – 336 p.

"*tarixi gerçəkliyə bədii don geyindirmək etalonu*" olduğunu qeyd edərək ədibin reallıqla bədii təhkiyənin vəhdətini ortaya qoyan yazıçı istedadını və əsərlərini yüksək qiymətləndirmişdir. Sonrakı dövrdə Avropada Uinston S. Çörçillin elmi-siyasi və ədəbi-bədii irsinin tədqiqinə maraq daha da artmış, bir sıra alimlərin araşdırmaları mühüm rol oynamışdır[8]. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının keçmiş baş naziri Boris Conson dahi liderin ədəbi fəaliyyətini, natiqlik istedadının maqnetik təsiri məsələsini əhatəli şəkildə araşdırmışdır[9]. Son illərdə Uinston S. Çörçillin elmi-siyasi və memuar irsinin nəşri tarixi elmi-ədəbi dövriyyədə xüsusi diqqət mərkəzinə çevrilmişdir.

Araşdırıcı Ə.Abdinov "Uinston Çörçill" adlı essesində Britaniya siyasətçisi və ədibi Uinston S. Çörçillin ömür yolunu maraqlı faktlarla azərbaycanlı oxucuya çatdırmışdır. Düzdür, müəllifin məqsədi dahi siyasətçi və memoristin əsas hədəf kimi ədəbi görüşlərini, "İkinci Dünya müharibəsi" adlı tarixi salnaməsinin ideya-məzmun xüsusiyyətlərini əks etdirmək olmasa da, o, araşdırmasında ədibin ədəbi fəaliyyəti ilə bağlı diqqəti çəkən qeydlər də vermişdir. Müəllif yazır: *"Uinston Leonard Spenser Çörçill ədəbiyyat sahəsində Nobel mükafatı alan ilk və yeganə hökumət başçısıdır. Yarım əsr ərzində Böyük Britaniya dövlətinə sədaqətlə xidmət edən, onun bir çox uğurlarına imza atan Çörçill təkcə böyük siyasətçi deyil, həm də zəmanəsinin görkəmli yaradıcı şəxsiyyətlərindən biri idi"*[10]. Ədibin

---

[8] Gilbert, M. The Churchill Documents. V. 6: At The Admiralty. July 1914 – April 1915 / M.Gilbert. – Hillsdale MI.: Hillsdale College Press, – vol.6. – 2008. – 840 p.; Gilbert, M. The Churchill Documents. V. 7: The Escaped Scapegoat. May 1915 – December 1916 / M.Gilbert. – Hillsdale MI.: Hillsdale College Press, – vol.7. – 2008. – 1685 p.; Birkenhead, F. Churchill: 1874–1922 / F.Birkenheard. – L.: Virgin Books, – 1989. – 512 p.; Longford, E. Winston Churchill / E.Longford – London, – 1978. – 243 p.; Langworth, R.M. Winston Churchill, Myth and Reality: What He Actually Did and Said, 2017: [Electronic resource]. URL: https://books.google.az/books?id =K42SDgAAQBAJ&pg=PT45&redir_esc=y#v=onepage&q&f=false və b.

[9] Johnson, B. The Churchill Factor: How One Man Made History, 2017: [Electronic resource]. URL: https://royallib.com/read/Johnson_ Boris/the_ churchill_factor_how_one_man_made_history.html#0

[10] Abdinov, Ə. Uinston Çörçill [Elektron resurs] / URL: https://kompartiya.wordpress.com/2017/06/28/uinston-corcill

siyasi-ədəbi nailiyyətlərinin başlanğıcını onun jurnalistlik fəaliyyəti ilə əlaqələndirən və məqalələrinin böyük təsir gücünü qeyd edən araşdırıcı haqlı olaraq onun ədəbi-bədii irsinin geniş və müfəssəl tədqiqata layiq olan məxəz, dövrün ədəbi salnaməsi statusunda dəyərləndirilməsini söyləmişdir.

***"Uinston S. Çörçillin elmi-siyasi və memuar irsinin nəşri"*** adlı ikinci paraqrafda göstərilir ki, ədibin çoxşaxəli fəaliyyətində mühüm yer tutan ədəbi-bədii əsərlərinin nəşr tarixi onun zəngin memuar irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Onun "İkinci Dünya müharibəsi" adlı memuar ədəbiyyatı ayrı-ayrı vaxtlarda altı, on iki və dörd cildlik nəşrlərdə, habelə bircildlik ixtisarla nəşr edilmişdir. Bu nəşrlərdəki bəzi cildlər "Zəfər" və "Faciə" adları ilə təqdim olunmuşdur. Memuarların nəşr vətəni əvvəl ABŞ, sonra isə İngiltərə olmuşdur. Tarixi salnamənin altı cildliyi 1948-ci ildə "Toplanan fırtına", 1949-cu ildə "Onların ən yaxşı saatı", 1950-ci ildə "Böyük Alyans" və "Taleyin məngənəsi", 1951-ci ildə "Üzük sıxılır", 1953-cü ildə "Zəfər və faciə" sərlövhələri ilə təqdim edilmişdir. Salnamələrin on iki cildliyi kağız üzlükdə "Toplanan fırtına", "Alatoran müharibə", "Fransanın süqutu", "Birlik", "Almaniya Şərqi işğal edir", "Müharibə Amerikaya gəlir", "Yaponiyanın hücumu", "Afrikada qələbə", "İtaliyanın işğalı", "Havadan hücum", "Qələbə dalğası" və "Faciə və zəfər" adları ilə dünya oxucusunun ixtiyarına verilmişdir. Əsər dörd cilddə "Fəlakət üçün mərhələlər", "Tək", "Böyük Alyans", "Zəfər və faciə" adları ilə nəşr edilmişdir. Eləcə də memuarların "Zəfər və faciə", "Toplanan fırtına" Con Kiqan tərəfindən 1985-ci ildə çap olunmuşdur. Əsərin "Toplanan Fırtına", "Onların ən yaxşı saatı" və "Böyük Alyans" cildləri Kanadada da dərc edilib uğur qazanmışdır. Memuarların Rusiya nəşrləri də böyük nüsxələrlə yayımlanmışdır. 2017-ci ildə Moskvanın "Alpina non fikşn" nəşriyyatı Uinston S. Çörçillin "İkinci Dünya müharibəsi" memuar ədəbiyyatının ingilis dilindən qısaldılmış tərcüməsinin 8-ci nəşrini üç kitabda nəfis şəkildə buraxmışdır.

Uinston S.Çörçillin siyasi və ədəbi irsi "Cassel a Co" Nəşriyyat evində çap olunmuşdur. "Döyüş, qan və göz yaşları", "Davamlı mübarizə", "Son başlanğıc", "Qələbə ilə", "Qurtuluş şəfəqi", "Hərbi çıxışlar", "Dünyanın əlaqələri", "Avropa Birliyi", "Balansda", "Hərbi

çıxışların tam mətni”, “Axının qırılması”, “İngilisdilli xalqların tarixi”, “İmza atılmayan birlik” adlı əsərləri ədibi ictimai-siyasi məzmunu, ideya-bədii dəyərləri ilə seçilən yeni fikir motivlərinin yaradıcısı, ictimai-siyasi çevrənin salnaməçisi kimi tanıtmışdır.

Ədib haqqında yazılmış bütün kitablarda və söylənilmiş fikirlərdə araşdırıcılar Uinston S.Çörçill yaradıcılığına, əsərlərinin sənətkarlıq xüsusiyyətlərinə, Britaniya ədəbiyyatında rolu və mövqeyi məsələlərinə geniş yer ayırmışlar. Onun yaradıcılığını təhlil edən ədəbiyyatşünaslar belə qənaətə gəlmişlər ki, o, bəşər tarixini mükəmməl bilən, analitik təhlil etməyi bacaran tarixçi, baş verən hadisələrə ədəbi don geyindirən, onu oxucu qəlbinə həkk etməyi bacaran istedadlı sənət adamıdır.

Ədibin ilk dəfə “Kassel” nəşriyyatında 1944-cü ildə çap edilmiş “Qələbəyə doğru” əsərində 1944-cü ilədək çıxışlarının mətni toplanmışdır. Bir il sonra, 1945-ci ildə “Kassel” nəşriyyatında çap edilmiş “Qurtuluş şəfəqi” adlı əsərində isə dahi siyasətçinin “Qələbəyə aparan yolda onun hazırlıq, qətiyyətdə səy”dən “Qələbə ümidi”nə qədər çıxışları yeni tarixi-siyasi salnamənin tarixi-bədii yaradıcılıq inteqrasiyası haqqında müəyyən fikir yaratmışdır.

Qeyd edək ki, ədibin əsərləri, istər memuarlar, istərsə də beynəlxalq münasibətlərə dair nitqi, çıxışları, aforizmləri onun bədii sənət dünyasında yaşadığı çətin və mürəkkəb dövrün böyük və diplomatik salnaməçisi olduğu haqqında aydın təsəvvür yaradır.

***“Britaniya və Azərbaycan ədəbiyyatında memuar janrı və onun tədqiqi”*** adlı üçüncü paraqrafda qeyd edilir ki, memuar ədəbiyyatının ilkin yaranması eramızdan əvvəl IV əsrdə qədim yunan yazıçısı və tarixçisi Ksenofontun adı ilə bağlı olmuşdur. Onun Sokrata həsr etdiyi “Sokratın mədhi”, “Sokrat haqqında xatirələr”, eləcə də onun yunanların hərbi yürüşlərindən bəhs edən “Anabasis” əlyazması memuar ədəbiyyatının parlaq nümunələridir.

Eramızdan əvvəl I əsrdə Romanın dövlət və siyasi xadimi, yazıçı və sərkərdəsi Yuli Sezarın qeyd olunan eranın 58-51-ci illərində Qalliya yürüşlərini, tarixi xronikaları əks etdirən “Qalliya müharibələri” adlı qeydlərinin əlyazmaları da memuar janrının antik nümunələrindən biri hesab edilir.

Uilyam Kuperin 1766-cı ildə yazdığı "Uilyam Kuperin gənclik illərinin xatirələri" adlı əsəri ingilis ədəbiyyatında memuar janrının ilk nümunəsi, David Nyumanın "Həyatım" (1777) adlı tərcümeyi-halı isə bu ənənənin maraqlı davamı sayılır. Yeni ədəbi forma ilə David Nyuman nəsr, poeziya və dramaturgiyada peşəkarlığını avtobioqrafik şəkildə diqqətə çatdırmışdır. Müəllif əsərində yalnız həyatı haqqında deyil, eləcə də ədəbi karyerası haqqında da bəhs etmişdir.

XIX əsrdə memuar ədəbiyyatı arealında Tomas Karleyl və Con Reskinin əsərləri xüsusi yeri ilə seçilir. İngilis yazıçısı Entoni Trollopun 1883-cü ildə yazdığı "Tərcümeyi-hal" əsəri Kraliça Viktoriya dövrünün ədəbi əsərləri arasında oxucu rəğbətini qazanmışdır. Avtobioqrafiyada ədəbiyyat və "Trollop-yazıçı" dilemması əsərin əsas mövzusunu təşkil edir.

XIX – XX əsrlərdə Britaniya ədəbiyyatının əhəmiyyətli memuar istiqamətli avtobioqrafiyaları yazılmışdır. XIX əsrin unikal məzmunlu memuar əsərləri sırasında ingilis yazıçılarından Tomas de Kvinsinin "Tiryəkdən istifadə edən ingilisin etirafları" və Con Henri Nyumanın "Həyatımın üzrxahlığı" əsərləri mühüm yer tutur.

Tarixi-ədəbi ekskursdan sonra Uinston S. Çörçill və Heydər Əliyevin memuar, yaxud xatirələrində avtonarratorun şəxsiyyətinin sezilmə spesifikası təhlil olunur, iki dahi şəxsiyyətin memuar janrı barədə mühakimələri arasındakı paralellər müəyyənləşdirilir. Hər iki siyasi xadimin gələcək nəsillərə tarixin obyektiv şəkildə çatdırılması haqqında konkret elmi arqumentlər gətirilir.

İllər ötdükcə yaşanan reallıqlara fərqli yozum və qiymətləndirmə fonunda tarixi şəxsiyyətlərin şahidi olduğu hadisələrin fərdi dəyərləndirməsini təqdim etmək ədəbi-elmi düşüncə dövriyyəsinin adamlarına yaxşı məlumdur. Lakin heç də həmişə bu marağın qarşılanması üçün yetərli zaman resurslarının olmaması bəzi hallarda bizi – həmin tarixi sadəcə olaraq, xronoloji ardıcıllıqla izləyən sonrakı nəsil nümayəndələrini acı təəssüflə qarşı-qarşıya qoya bilir. Belə ki, ulu öndər Heydər Əliyev memuar ədəbiyyatının vacibliyini vurğulamaqla bərabər, özünün də memuar yazmaq istəyi və həvəsi olduğunu etiraf etsə də, həyat gedişatının onun bu istəyinin reallaşmasına mane olduğunu böyük təəssüf hissi ilə dilə gətirmişdir.

Bununla belə, Ümummilli lider məhz yaşanan tarixi sınaqların, siyasi kataklizmlərin, geosiyasi qarşıdurmaların pərdə arxası detallarının açıqlanması üçün məhz memuar ədəbiyyatının alternativ tarixi mənbə kimi əhəmiyyətini qeyd edərək, onun gələcək nəsillər üçün misilsiz məxəz olduğunu vurğulamışdır: *"Lakin hesab edirəm ki, onlar* (memuarlar – T.İ.) *çox lazımdır. Mənim üçün yox, Azərbaycan xalqı, tarix və gələcək nəsillər üçün. Mən 1940-cı ildən Azərbaycan siyasi tarixinin içində olmuşam. Mənim gördüyüm və müşahidə etdiklərimi heç kəs görməyib. Ona görə də bu memuarlar lazımdır"*[11].

Beləliklə, siyasi liderlərin memuar janrının əhəmiyyətini vurğulamaqla bərabər, onların xatirələrində psixoloji portret cizgilərinə aydınlıq gətirən detallara da yer verdiyini söyləmək olar. Bu detalları onların müasirləri olmuş yaxın ailə üzvləri, dostları və ya silahdaşlarının memuarlarına əsasən təsbit etmək mümkündür.

Müəllifin bu fəsillə bağlı əldə etdiyi əsas nəticələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda və Respublika konfranslarının materiallarında çap olunmuşdur[12].

Dissertasiyanın **"Uinston S. Çörçill memuar janrının ustadı kimi**" adlanan II fəslinin ***"Uinston S. Çörçillin ədəbi-bədii və elmi-publisistik irsi"*** adlı birinci paraqrafında qeyd edilir ki, Uinston S. Çörçill hərbi müxbir kimi redaktorlar və oxucular, eləcə də peşəkar hərbçilər tərəfindən yaxşı tanınırdı. Onun memuar yaradıcılığı bilavasitə döyüş təəssüratları, hərbi-siyasi kataklizmlərlə bağlı yaşanmış xatirələrlə bağlıdır.

Qədim və möhtəşəm tarixə malik məşhur zadəgan nəslinin nümayəndəsi olan, VII Malboro hersoqunun nəvəsi, dövrünün aparıcı siyasi xadimlərindən biri, Britaniya parlamentinin üzvü Rendolf Çörçillin oğlu Uinston Çörçill zadəgan nəslin, demək olar ki, müflis varisi idi, bu səbəbdən də aşağı olan hərbçi maaşı ilə kifayətlənməyərək hələ gənc yaşlarından publisistika ilə məşğul olmuşdur. Sonra illər uzunu, məhz publisistika və memuaristika

---

[11] Onda mənim heç kimim yox idi...– Heydər Əliyevdən tarixi müsahibə: [Elektron resurs] // Mia.az, – 3 oktyabr, – 2015. URL: https://mia.az/w123914/123914.

[12] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 1; 2; 3; 4; 5; 8.

Uinston S. Çörçillin əsas gəlir mənbəyinə çevrilmişdir. 1920-1927-ci illər arasında o, müntəzəm olaraq avtobioqrafik məzmunlu məqalələr və esselər yazmışdır. “The Strand” jurnalında “Buralardan necə qaçdım” (dekabr 1923 və yanvar 1924), “Gənc olanda” (dekabr 1924), “Pallda – Hindistan vadisində” (sentyabr 1927), “Birlikdə ümid burnuna doğru” (noyabr 1927) silsilə məqalələri dərc olunmuşdur. Publisistikadakı gəliri hərbçi maaşını üstələdiyindən və oxucu heyranlığını qazandığından Uinston S. Çörçill tez bir zamanda iri həcmli bioqrafik əsərlərini (“The Story of the Malakand Field Force”, 1898; “The River War”, 1899) nəşr etdirmişdir. Siyasi fəaliyyətinin gərginliyi ilə şərtlənən qısa fasilələr nəzərə alınmazsa, ədib Nobel “zirvəsini” fəth edərək ədəbi salnaməçilik fəaliyyəti ilə tanınmışdır.

“Ədəbiyyat qəzeti”ndə Uinston S. Çörçillin “Yazıq küçük Puqi-Vuq” adlı uşaq şeiri dərc olunmuşdur. Şeirin ingilis dilindən tərcüməsi aşağıdakı kimidir:

*“Nə olubdur bilən var.*
*Bu yazıq Puqi-Vuqa?!*
*Ver yeməyi tavada,*
*Öp üzündən qucaqla.*
*Tez ol, axtar hər yanı,*
*Tapıb gətir dərmanı.*
*Çək üstünə palazı,*
*Qızdırması azalsın.*
*Getsin azar-bezarı*
*Puqi-Vuq da sağalsın”*[13].

Uinston S. Çörçill çoxşaxəli yaradıcılığında sadə, səmimi uşaq şeirləri ilə də tanınmışdır. Bu, heç şübhəsiz ki, ədəbiyyatı, poeziyanı sevən ədibin bədii sənət yolunda şair kimi də tanındığından xəbər verir.

Bütövlükdə isə, ustad ədibin ədəbi-bədii və elmi-publisistik irsinin Azərbaycan elmi-ədəbi arealında öyrənilməsi dünyada sülhün qorunub saxlanılması yolunda böyük xidmətləri ilə seçilən dahi şəxsiyyətlərin milli kimliyinin təyin olunmasında xüsusi əhəmiyyət kəsb edir.

---

[13] Çörçill Uinston S. Yazıq küçük Puqi-Vuq (şeir). / İngilis dilindən tərcümə edəni: Şahin Xəlilli. // Ədəbiyyat qəzeti, – 2023, 27 may. №20 (5410), – s.8

***“Ədibin memuarları – “eqo-sənəd” və avtobioqrafik nəsr sintezi kimi”*** sərlövhəli paraqrafda Uinston S. Çörçillin memuar ədəbiyyatında sırf faktoloji xronikaçılıqla bədii təhkiyəsinin uyumlu vəhdətdə olduğu qeyd olunur. Onun bədii-sənədli irsində *“Dünya böhranı”* (“The World Crises”) adlı əsəri xüsusi yeri ilə seçilir. “Dünya böhranı”ndan sonra yaradıcılığında ləngimələr onun təhkim olunduğu rəsmi vəzifələrin ağırlığı ilə bağlı olmuşdur. Buna görə də o, 1926-cı ilin ortalarına qədər ədəbi layihələrini qeyri-müəyyən müddətə kənara qoymağa məcbur olmuşdur. Daha sonra “Mənim erkən həyatım” (“My Early Life”, 1930) adlı avtobioqrafik romanında [14] uşaqlıq illərindən tutmuş ömrünün ən məhsuldar dövrünədək yaddaqalan hadisələrin bədii-sənədli salnaməsini yaratmışdır. Əsərdə müharibə iştirakçısı və gənc siyasətçi kimi fəaliyyət göstərdiyi zamanın unudulmaz səhifələrini həssas yazıçı duyumu və deyimi ilə qələmə almışdır.

Uinston S. Çörçill memuarlarının sadəcə bu janr üçün yetərincə xarakterik olan məqamlarını səciyyələndirmədən, onların sırf “fotoqrafiklikdən” uzaq olduğunu söyləmək olar. Əsərin hər sətrində müəllifin kimliyi və onun mövqeyi sezilsə də, obyektiv gerçəkliyi əks etdirməyə çalışan ədib xronikaçı deyil, bədii təhkiyə formatında yaşadığı, şahid olduğu və oxuyub eşitdiyini refleksiya etməyə qadir olan və ən əsası onu (avtorefleksiyasını) ricətli nəsr qəlibinə salan bədii fəhm sahibi, ustad yazardır. Başqa sözlə desək, Uinston S. Çörçill memuar janrında sosial roman, elmi traktat, epistolyar janr elementlərinin sintezi üzərində nəşət tapan xüsusi avtobioqrafik əsər formatını ərsəyə gətirmiş Herbert Uells kimi, əsərlərini metajanr səviyyəsinədək təkamül etdirməsə də [15], bu janrın, məhz dövrün ədəbi-tarixi salnaməçiliyi missiyası baxımından onun əhəmiyyətli inkişafına təkan verə biləcək əsərlərini yaratmışdır.

Uinston S. Çörçillin ədəbi-bədii irsində müstəsna yeri ilə seçilən memuarları “eqo-sənəd” və avtobioqrafik nəsrin sintezi

---

[14] Churchill, W.S. My Early Life. A Roving Commission, 1930: URL: https://gutenberg.ca/ebooks/churchillws-myearlylife/churchillws-myearlylife-00-h-dir/churchillws-myearlylife-00-h.html

[15] Караева, Л.Б. Английская литературная автобиография: трансформация жанра в XX веке: /автореф. дисс. доктора филол. наук / – Москва, 2010. – с.19

müasir memuarşünaslıqda ədibin zəngin təcrübəsi və yaradıcı uğurunu təmin edən əsas meyarlardan biridir.

***“Memuar ədəbiyyatının janr xüsusiyyətləri və avtonarrativin müəllif kimliyi”*** adlanan üçüncü paraqrafda Uinston S. Çörçillin memuar irsi, eləcə də avtobioqrafik məzmunlu əsərləri bazasında onun psixoemosional təbiətinin, uşaqlıq və gənclik travmalarının, sosial konfiqurasiyasının təhkiyəsinə sirayət potensialı və formatı təhlil olunur. Bu kontekstdə ilk olaraq, memuar ədəbiyyatında avtonarrativ – müəllifin subyektiv avtorefleksiyası ilə obyektiv gerçəkliyin sintezi məsələsi araşdırılır. Uinston S. Çörçill imperialist mentallığının daşıyıcısı kimi, o zamankı Britaniya imperiyasının hüdudlarında yaşayan bir çox xalqların müstəqillik uğrundakı mübarizəsinə neqativ münasibət bəsləsə də, bilavasitə “İrland məsələsi” ilə bağlı məqamlarda olduğu kimi, incə ingilis yumoru ilə kinayəli təhlillər aparmaqdan çəkinməmişdir. Analoji məqamı onun hindlilərə qarşı öngörüşlü münasibətinin bədii təhkiyə formatında həlli timsalında da görmək mümkündür: müəllif hindlilərin həyatının, ümumiyyətlə Hindistanda yaşamağın passiv, darıxdırıcı olduğunu maraqlı təhkiyə ilə ifadə etmişdir[16] (məramın özü nə qədər neqativ olsa da, onun bədii həlli ədibin yaradıcı ustalığına dəlalət etməyə bilməzdi). O, həmçinin Kiçik Asiya və Qafqaz xalqlarını barbar və cahil kütlə kimi səciyyələndirməklə anqlosaks təkəbbürünü də açıq şəkildə ifadə etməkdən çəkinməmişdir[17]. Habelə məlum olur ki, zadəgan zümrə tərbiyəsinin davranış konfiqurasiyasının təsiri altında olan ədib emosiyalarının xəsisliklə ifadəsində, bir növ Ernest Heminqueyin “aysberq üslubunu” xatırladan təhkiyəsi ilə seçilirdi. Hətta atasının ölüm xəbərinin təsvir edildiyi hissədə də emosional ekspressiyanın pik nöqtədə olmasına baxmayaraq, müəllif onu həmin itkinin böyüklüyü müqabilində kifayət qədər lakonik və emosional planda, lakin böyük təsir gücünə malik şəkildə ifadə etməyi bacarmışdı[18].

[16] Churchill, W.S. My Early Life. A Roving Commission: [Electronic resource]. URL: https://gutenberg.ca/ebooks/churchillws-myearlylife/churchillws-myearlylife-00-h-dir/churchillws-myearlylife-00-h.html
[17] Yenə orada
[18] Churchill, W.S. My Early Life. A Roving Commission: [Electronic resource]. URL: https://gutenberg.ca/ebooks/churchillws-myearlylife/churchillws-myearlylife-00-h-dir/churchillws-myearlylife-00-h.html

Bir çox cəhətdən oğul Uinston S. Çörçill üçün rol-model rolunu oynayan ata Rendolf Çörçill qısa, lakin maraqlı həyatı boyunca atdığı addımlarla, siyasi seçimləri nümayiş etdirdiyi ictimai mövqeyi ilə bunun fərqinə varmadan geosiyasi oriyentirlərini, siyasi əxlaq kodeksini, mənəvi dəyərlər göstəricilərini müəyyənləşdirmişdi.

O, atasının xarici görünüşünün təsvirindən başlayaraq, onun siyasi fəaliyyətinə qədər həyatı və şəxsiyyətinin ən fərqli aspektlərini o qədər həssaslıqla və təfsilatlı şəkildə təsvir edir ki, burada heç şübhəsiz ki, memuar janrında yazdığı əsərinin avtobioqrafiklik əmsalının yüksək olduğunu təsbit etməyə bilmirik. Belə ki, Rendolf Çörçill İcmalar Palatasında yer alan mühafizəkarların liderlərindən biri olmaqla, Britaniyanın maliyyə naziri  vəzifəsinə qədər yüksələ bilmiş, sözsüz ki, memuar ədəbiyyatı personajı kimi dövrün siyasi mənzərəsinin canlandırılmasında önəmli fiqurlardan biri kimi çıxış etmişdir. Lakin onun obrazının bütün əsərin ideya nüvəsini təşkil etməsi, Uinston S. Çörçill xatirələrinin dolğun şəkildə məhz atasının obrazı ilə kəsişdiyini nəzərə alsaq, burada artıq subyektiv avtobioqrafik başlanğıcın daha artıq çəkiyə malik olduğunu təsbit edə bilərik. Belə ki, əsərdə Rendolf Çörçilldən dövlətin siyasi xadimlərindən biri kimi deyil, Uinston S. Çörçillin atası kimi, özü də bir növ "fövqəl-ideya"sına çevrilmiş formatda bəhs edilir.

***"Uinston S. Çörçillin memuar irsində "Ata" konsepti"*** adlanan dördüncü paraqrafda ədibin memuar-bioqrafik irsində atası Rendolf Çörçill obrazının dominant təsir faktoru səviyyəsi izlənilir, onun Uinston S. Çörçillin ayrı-ayrı əsərlərində subyektivizmə yol verməyə "təhrik edən" hədsiz nüfuzunun kökləri müəyyənləşdirilir və hətta, vəfatından sonra da oğlunun yaradıcılığını "yönləndirə" biləcək travmatik rezonans faktoru dəyərləndirilir. Rendolf Çörçillin oğlu Uinston S. Çörçillə ünvanlandırdığı məktublarında səsləndirilən fikirlərlə, həm atasının, həm də yazarın özünün müasirlərinin xatirələrində yer alan faktlarla müqayisəli şəkildə aparılan təhlillər verilir. Bütün bunlar isə ədibin yaratdığı qayğıkeş, diqqətcil "Ata" obrazının reallıqdakı Rendolf Çörçilli demək olar ki, əks etdirmədiyini, əslində onun subyektiv pozitivləşdirilmiş təqdimatını təcəssüm etdirdiyini söyləməyə əsas verir. Ən maraqlısı isə budur ki, Uinston S. Çörçill ayrı-ayrı avtobioqrafik əsərlərində atasının

xatirəsini yad etməklə kifayətlənməmişdir. O, daha çox mədhiyyə janrlı əsər kimi, xristian müqəddəslərinin həyatının ifrat müsbət spektrdə işıqlandırılmasını xatırladan aqioqrafik formatlı eyniadlı (“Rendolf Çörçill”, 1906) əsərini də yazmışdır. Bütün uşaqlığı və gəncliyi boyu atasını təqdir etməyə çalışan Uinston S. Çörçill onun ölümündən sonra yetkinlik illərində də atasının xəyali obrazına köklənməklə siyasi qərarlarını verməyə çalışmışdır. Ədibin artıq real Rendolf Çörçilldən deyil, həyatına hakim kəsilmiş “kölgəsindən” icazə alması gerçəkliyi də onun uşaqlıq travmalarının dərinliyinə dəlalət edir.

Atası heç də ədibin təqdim etdiyi qədər qayğıkeş və diqqətcil deyildir. Ən başlıcası isə, ata implisit şəkildə Çörçilli qədirbilməzlikdə ittiham edir. Rendolf Çörçill oğlunun istedad və bacarığını nəinki görmür, hətta gələcəkdə ondan avara, bivec insan, uğursuzluğa düçar olmuş bədbəxt və lazımsız fərd çıxa biləcəyini söyləməkdən çəkinmir. Ən paradoksal hal isə odur ki, bütün bu manipulyativ ittihamdan sonra Rendolf Çörçill məktubunu *“Səni sevən atan, Rendolf SC”* şəklində bitirir. Lakin bütün bu paradoksal kinayəyə rəğmən, Uinston S. Çörçillin memuarist qələmindən çıxan Rendolf Çörçill obrazı qibtə ediləcək ailə başçısı və ata kimi təqdim olunmuşdur.

Müəllifin bu fəsillə bağlı əsas nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məqalə və tezislərin materiallarında dərc edilmişdir[19].

Dissertasiyanın **“Uinston S. Çörçillin memuar irsində tarixi gerçəkliyin təsviri”** adlanan III fəslinin ***“Ədibin “İkinci Dünya müharibəsi” adlı memuar ədəbiyyatının ideya-bədii xüsusiyyətləri”*** sərlövhəli birinci paraqrafında göstərilir ki, o, adı çəkilən memuar ədəbiyyatı ilə həqiqətə sadiqliyini və tarixi gerçəkliyin unudulmazlığını təmin etmişdir. Qeyd edək ki, müstəqil ədəbiyyatşünaslığın müasir dünyaya inteqrasiya olunduğu şəraitdə ədibin II Dünya müharibəsinin gerçəkliyini əks etdirən “İkinci Dünya müharibəsi” tarixi memuarının Azərbaycan dilinə tərcüməsinə böyük ehtiyac vardır. Bu əsərin unikallığının bir səbəbi də ondan ibarətdir ki, dahi siyasətçi əsərində şahidi və iştirakçısı olduğu hadisələri, eləcə də çoxsaylı memorandum sənədləri,

[19] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 12, 13.

bəyanatlar, qeydlər, teleqramlar, cədvəllər, xülasələrlə zənginləşdirərək tarixin unudulmaz bədii-sənədli salnaməsini yaratmışdır. Ədib memuarının məzmun və strukturunda tarixi-klassik təcrübəyə sadiq qalaraq xeyli sayda memuar ədəbiyyatından bəhrələnmiş, "Kavalerin xatirələri" kitabının, realist romanların müəllifi, yazıçı Daniel Defonun yaradıcılıq metoduna sadiq qalmışdır. Bu sadiqliyi ədib aşağıdakı qeydlərində bir daha təsdiq edir: "*Mən, mümkün qədər, "Kavalerin xatirələri" kitabının müəllifi Defonun metoduna sadiq qaldım, burada onun şəxsi həyatında baş verən hadisələrin hekayəsi faktların üzə çıxdığı mövzu rolunu oynayır*"[20]. Əsərin "memuar və tarix" paradiqmasına uyğunluğu məqamına aydınlıq gətirərək qeyd edək ki, bədiilik, tarixilik detallarını təhlil və şərh edərkən "sənədləşdirilmiş tarixi faktlar"a müraciəti – ədibin memuar yaradıcılığında əsaslı rol oynayan faktorlardan biri olmuşdur. Lakin tarixi hadisələrin aydın, səlis və obrazlı dillə real görüntülərə və şahidliklərə əsaslanmasının Uinston S. Çörçillin yazıçı üslubuna təsirin əsas meyarlardan biri olduğunu da unutmaq olmaz. Digər tərəfdən ədəbiyyatşünaslığın "*məzmun əsasdır*" tələbi ilə əsərə yanaşsaq, ədibin yaratdığı ədəbi-bədii əsərlərinin ədəbi-bədii axtarış mövqeyinin, onların bədii-estetik keyfiyyət orijinallığının əsas faktor olduğunu da söyləmək lazımdır. Uinston S. Çörçillin memuar ədəbiyyatı tarix kimi qəbul edilsə də, o, xatirələrinin tarix olmadığını vurğulayaraq yazırdı ki, "*onlar* (memuarlar nəzərdə tutulur – T.İ.) *sadəcə olaraq "gələcək üçün xidmət göstərəcək tarixə töhfə"dir*"[21]. Uinston S. Çörçillin "İkinci Dünya müharibəsi" memuarları müəyyən zaman kəsiyində ərsəyə gəlsə də, ciddi müşahidə, fakt və sənədlər bazasında dövrün bədii-estetik tələblərinə uyğun şəkildə yazılmış tarixi-siyasi gerçəkliyin ədəbi-bədii düşüncə kompleksinə əsaslanmış əsər təəssüratı bağışlayır. Əsərin məzmun-mündəricəsində tarixi həqiqətlərdən təhrif olunma xüsusiyyətlərinə görə yayınma, tarixi şəxsiyyətlər, onların fərdi xüsusiyyətlərinin bədiilik meyarında açılması yazıçıya

---

[20] Черчилль, У.С. Вторая мировая война: [В 3 кн.] / У.С.Черчилль. – М: Альпина нон – фикшн, – Кн.1, т. 1-2. – 2017. – с.11

[21] Churchill, W.S. Lord Randolph Churchill: [in 2 vol.] / W.S.Churchill. – London: Macmillan, – vol.2. – 1906. – p.7.

daha çox ədəbi təsvirçi statusunu verməyə haqq qazandırır. Memoristin ömür yoluna nəzər salanda isə açıq-aydın şəkildə görünür ki, onun üçün Böyük Britaniya ən böyük sənət mövzusu olmuşdur. XX əsrin 20-30-cu illəri ədibin səyahətləri zamanında yaradıcılığının məhsuldar dövrü idi. Lakin 1945-ci ilə qədər Britaniya imperiyasının tənəzzülü Britaniya ədəbiyyatında vətən taleyini arxa plana keçirmişdi. Vətənpərvər yazıçı-siyasətçi kimi Uinston S. Çörçillin məqsədi "İkinci Dünya müharibəsi" adlı memuar ədəbiyyatında bir tərəfdən tarixi reallıqları əks etdirmək, digər tərəfdən əsas mövzu çevrəsində Britaniyanın taleyüklü obrazını yaratmaq idi. Baş nazir olandan üç gün sonra Uinston S. Çörçill Britaniya xalqına söyləyirdi ki, "qələbə" onların ola bilər, onun "*nəyin bahasına olursa olsun qələbə*" ilə nəticələnəcəyi əsas məqsəd və hədəfdir.

Ədib "İkinci Dünya müharibəsi" adlı kitabında bir çox tarixi görüşlərindən bəhs etmiş, İngiltərənin müharibə dövründə oynadığı fəal rolunu ustalıqla qələmə almışdır. Bu hadisələrdən biri də Porl-Harbora hücumla bağlıdır. Porl-Harbora hücum, Yaponiya imperiyası silahlı qüvvələrinin Havay adaları qrupuna daxil olan, Oahu adasında yerləşən ABŞ ordusunun Sakit okean donanmasının Porl-Harbor hərbi dəniz bazasına 7 dekabr 1941-ci il tarixli gözlənilməz həmlə hesab edilir. Ədib əsərində yazırdı ki, *"bu gözlənilməz xəbəri alar-almaz o, dərhal lazımi yerlərə məlumat ötürür"*[22].

Uinston S. Çörçillin II Dünya müharibəsi ilə bağlı memuar ədəbiyyatının xarakterik cəhətlərindən biri də budur ki, o, dost və düşmən mövqeyində dayanan şəxsləri olduğu kimi, obyektiv, heç bir qərəzə yuvarlanmadan təsvir etməyə müvəffəq olmuşdur.

***"Uinston S. Çörçillin tarixi memuarlarında Şərq gerçəkliyi"*** adlı paraqrafda ədibin Şərqlə bağlı təsvir olunan hadisə və proseslərin, tarixi şəxsiyyətlərin dolğun və obyektiv canlandırma imkanları təhlil müstəvisinə gətirilir. Qeyd olunur ki, Uinston S. Çörçillin memuarlarında Qafqaz, xüsusilə Bakı məsələsinə xüsusi yer ayrılmışdır. Sovet Ordusunun Qafqazda almanların qarşısını ala bilməsi ədibi daha çox düşündürmüş, İ.V.Stalinlə söhbətlərində o, bu

---

[22] Черчилль, У.С. Вторая мировая война: [В 3 кн.] / У.С.Черчилль. – М: Альпина нон – фикшн, – Кн.3. т. 5-6. – 2017. – с.80.

problemə xüsusi önəm vermişdir. Almanlar tərəfindən Xəzər dənizinin və Bakı neftinin ələ keçirilməsi Uinston S. Çörçilli çox narahat etmişdir. Əbəs deyildir ki, o, aforizmlərində də Bakıya, Bakı neftinə xüsusi dəyər verərək yazırdı: "*Bakı kraliçadırsa, neft onun taxt-tacıdır*".

Ədibin memuarlarının 5-ci cildinin "Tehrandan Romaya" adlı ikinci hissəsinin yüksək sənətkarlıqla yazılan fəsillərindən biri "Tehran: konfransın açılışı" adlı ikinci fəsli yalnız tarixilik deyil, yüksək bədii sənətkarlıq baxımından diqqətçəkicidir. Belə ki, ədib Tehrana gəlişini, görüş haqqında təəssüratlarını, siyasi xadim kimi özü üçün heç bir mühafizə təhlükəsizlik tədbirlərinin görülmədiyini və şəhərin təsvirini realist biçimdə oxucuya təqdim etmişdir.

Ədib memuarlarında təbiət lövhələrinə diqqət çəkərək ingilis nümayəndəliyinin binasını əhatə edən bağları, Tehranın küçələrini də özünəməxsus yazıçı üslubu ilə oxucu diqqətinə çatdırmışdır. Bütün bunlar onun yazıçı kimi bədii lövhələr yaratmaq istedadı ilə bağlıdır. Sözügedən fəsildə müəllif təhkiyəsinin əsas məqamlarından biri də tarixi gerçəkliyin bugünümüzə çatdırılmasında əhəmiyyətli olan və Tehran konfransının tarixi təsvirində elmi-tarixi fikirdə xüsusi yer almayan siyasi xadimlərin həyatına ediləcək qəsdin qarşısının alınmasında sovet səfirliyinin məsləhəti ilə konfrans məkanının dəyişdirilməsidir. Əsərdə İtaliya hücumu, Balkanlar, Egey dənizi, Türkiyə məsələsi, Ruzvelt – Stalin görüşləri, qarşılıqlı anlaşmalar, İ.V.Stalinin Çin qoşunları barədə təəssüratları, Uzaq Şərqin müstəmləkə xalqlarına özünüidarəetmə hüququnun verilməsi çağırışları, Yaponiyanın hərbi niyyətlərinin qarşısının alınması, Hindistan məsələsi, sovet səfirliyində keçirilən üçtərəfli görüşlər, siyasi liderləri müşayiət edən məsul şəxslərin, siyasi liderlərin Tehran gəzintiləri və hər üç dövlətin siyasi məqsəd və sülhsevər niyyətlərin peşəkarlıqla qələmə alınmışdır. Bütün bunlar ədibin istedadı, səriştəsini əyani şəkildə ortaya qoymaqla yanaşı, onun vətəndaş-siyasətçi mövqeyini də nümayiş etdirir.

Fəsillə bağlı əsas nəticələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli və xarici ölkələrin elmi jurnallarında, eləcə də Respublika və

Beynəlxalq konfrans materiallarında çap olunmuşdur[23].

"Uinston Çörçillin memuar irsi dövrün bədii-sənədli salnaməsinin yaradılması təcrübəsi kimi" adlı dissertasiya ilə əlaqədar apardığımız elmi təhlil və şərhlər aşağıdakı ümumiləşdirmə və nəticələrin əldə edilməsinə zəmin yaratmışdır:

– Uinston S. Çörçill qeyri-adi təhkiyəsi və zəngin metaforik ifadəliliyi olan təkrarsız üslubu ilə əksər ədəbi tənqidçilərin ciddi bədii janr hesab etdiyi memuar janrının yüksək keyfiyyət mərhələsinə keçidini təmin edərək bu janrda yazdığı əsərləri ilə memuar-bioqrafik janrın yeni spesifikasını yaratmışdır;

– Uinston S. Çörçill və Heydər Əliyev öz xalqının tarixinin ən çətin geosiyasi sınaq mərhələsində misilsiz tarixi missiyasını gerçəkləşdirməklə oxşar ictimai-siyasi karyeraya malik olduğu kimi, müstəsna xidmətləri ilə bağlı mövqelərində də bənzər mahiyyətli yanaşma sərgiləmişdir;

– Uinston S. Çörçillin memuar irsinin təhlili memuar və avtobioqrafiya janrının definisiya probleminin hələ də birmənalı nəzəri həllini tapmadığını diktə edir. Bu janrlar sinkretik mahiyyət daşıyır. Belə ki, ədib "Mənim erkən həyatım" adlı əsərində hər iki janr komponentinin – həm memuaristik, həm də avtobioqrafik başlanğıcın qabarıq olduğunu nümayiş etdirmiş, təqdim etdiyi fraqmentlərin, süjet xətlərinin sintezi əsasında mükəmməl janr kontaminasiya nümunəsini yaratmağa müvəffəq olmuşdur;

– Uinston S. Çörçillin memuar irsinin təhlili ümumilikdə, memuar-avtobioqrafik janr üçün səciyyəvi sayılan subyektivlik prizmasından baxışın yetərincə həlledici rol oynadığını ortaya qoymuşdur. O, siyasi proseslərin təhlilində obyektiv dəyərləndirmə mizan-tərəzisinin gözündə natarazlığa yol verməməyə çalışsa da, bəzi mövzularla bağlı subyektiv baxış bucağının dominantlığının təsirindən qaça bilməmişdir. Bu kimi məsələlər sırasında ədibin Britaniya imperialisti kimi nümayiş etdirdiyi təkəbbürün sahibi olmasıdır;

– Ədibin memuar irsində subyektiv rakurslu təhkiyə formatının fəallığını təmin edən aparıcı faktorlardan biri onun yaradıcılığında

[23] İddiaçının avtoreferatın sonunda təqdim olunmuş əsərlərinin siyahısında: № 6; 7; 9; 10, 14.

"Ata" konseptinin bədii həlli ilə bağlı öngörüşləri olmuşdur. Belə ki, Uinston S. Çörçill "Mənim erkən həyatım" avtobioqrafik memuarında, eləcə də "Rendolf Çörçill" memuarında ata obrazının təqdimatında, habelə onun Britaniya siyasi tarixindəki rolu və mövqeyinin dəyərləndirilməsində əsaslı dərəcədə subyektivizmə yuvarlanmışdır;

– Ədibin memuar irsinin təhlili onun müəyyən uşaqlıq travmalarının, ictimai-siyasi konfiqurasiyasının təsirindən yan keçə bilmədiyini və bilavasitə bu əsasda formalaşmış psixoemosional kimliyinin "möhürünü" əks etdirir. Onun memuar irsində travma və komplekslərinin metamorfozlarının dinamikası (məsələn, Hindistan məsələsinə, İslam dininə münasibətdə) təcəssümünü tapmışdır;

– Uinston S. Çörçill "İkinci Dünya müharibəsi" adlı memuar ədəbiyyatı ilə bədii sənətin orijinallığı, təsvir və ifadə rəngarəngliyi ilə ictimai-siyasi gerçəkliklə bədii sənətin vəhdətini yaratmışdır. Onun "İkinci Dünya müharibəsi" memuarı həyat gerçəkliyinin bədii əksini təcəssüm etdirən tarixi fakt, hadisə və çoxsaylı arxiv materialları ilə dövrün bədii-sənədli salnaməsi hesab edilə bilər;

– Yaradıcılığının şah əsərlərindən sayılan "Çay müharibəsi", "Dünya böhranı" və "İkinci Dünya müharibəsi" kitablarında ədib həqiqət mövqeyinin carçısı kimi çıxış etmişdir;

– Ədib Britaniya ədəbi-bədii fikir tarixində siyasətlə ədəbiyyatın vəhdətini yaratmış, sülhün və tərəqqinin memuarı, zəngin memuar ədəbiyyatının varisi olmuşdur;

– Uinston S. Çörçill memuar irsi ilə dövrün bədii-sənədli salnaməsinin humanist yazıçısı kimi dəyərləndirilə bilər.

***Dissertasiyanın ümumi məzmunu, əsas müddəaları, tədqiqat əsasında əldə edilmiş nəticələri aşağıdakı məqalə və tezislərdə əksini tapmışdır:***


1. İbrahimova, T.T. Uinston S. Çörçill yaradıcılığında tarixi faktlarla şəxsi memuarların vəhdəti // – Bakı: Bakı Dövlət Universiteti. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2018. № 4 (108), – s.334-337.
2. İbrahimova, T.T. Uinston S. Çörçillin aforizmlərində fəlsəfi, yaxud əxlaqi həyat gerçəkliklərinə dair // – Bakı: Bakı Slavyan

Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. № 2, – s.163-166.
3. İbrahimova, T.T. Uinston S. Çörçillin aforizmlərində hikmət dənizi // Qərbi Kaspi Universiteti. Gənc tədqiqatçıların elmi-praktik konfransının materialları, – Bakı: – 19 aprel, – 2019, – s.226-232.
4. İbrahimova, T.T. Uinston S. Çörçillin yaradıcılığında dünya tarixinin ədəbi-bədii təcəssümü // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2019. c. 67, № 3, – s.80-84.
5. İbrahimova, T.T. Uinston Leonard Spenser Çörçill şəxsiyyətinin və yaradıcılığının bəzi aspektlərinə dair // – Bakı: Azərbaycan Dillər Universiteti. Dil və ədəbiyyat, – 2021. c. XI, № 1, – s.101-106.
6. Ibrahimova, T.T. History of Winston S. Churchill`s “Second World War” Ideas of Poetic – Dramatic Features // – Bishkek: Bulleten Kyrgyz State University Named After I.Arabaev, – 2022. №2, – p. 220-227.
7. İbrahimova, T.T. Uinston S.Çörçillin “İkinci Dünya müharibəsi” tarixi memuarında gerçəkliklərin bədii həlli // – Bakı: Azərbaycan Universiteti, İpək yolu, – 2022. № 3. – s.76-83.
8. İbrahimova, T.T. Azərbaycan ədəbiyyatında memuar janrı və onun elmi araşdırılmasına dair // Azərbaycan Universiteti. Gənc tədqiqatçıların V Respublika elmi-praktik konfransının materialları. – Bakı: – 15 aprel, – 2022, – s.139-141.
9. Ibrahimova, T.T. The Scientific, Political and Memorial Legacy of Winston S. Churchill. Azerbaijani Literary and Historical Opinion // – Volgograd: Publishing House “Scientific Survey”, Philology, – 2022. № 5 (41), – p.13-18.
10. Ibrahimova, T.T. Winston S. Churchill’s History and Memorial Paradigm and the “Second Reality” of Literature. // Proceedings of the 1$^{st}$ International Scientific and Practical Conference «Innovative Development in the Global Science». – Boston, USA: – 6-8 June, – 2022, – p.242-249.
11. İbrahimova, T.T. Uinston S.Çörçillin memuarlarında “Ata” konseptinin bədii həlli – tarixi reallıqla uşaqlıq travmalarının

sintezi kimi // Gənc tədqiqatçıların VI Respublika elmi konfransının materialları. – Bakı: Azərbaycan Universiteti, – 10 mart, – 2023, – s.121-122.
12. İbrahimova, T.T. Memuar ədəbiyyatında avtonarrativin müəllif kimliyini ifadə etmə potensialı haqqında (U.S.Çörçillin memuar irsi əsasında) // – Bakı: AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2023. №1, – s.411-418.
13. İbrahimova, T.T. Uinston S. Çörçill memuarları – "eqo-sənəd"in və avtobioqrafik nəsrin sintezi kimi // – Bakı: BDU, Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2023. №1(121), – s.130-132
14. Ibrahimova, T.T. From the Research History of Winston S.Churchill's Scientific-Political and Memoir Heritage // – Махачкала: Вестник Дагестанского Государственного Университета. Серия 2: Гуманитарные науки, – 2023. Том 38, Вып.2, – с.16-26. URL: https://cyberleninka.ru/article/n/from-the-research-history-of-winston-s-churchill-s-scientific-political-and-memoir-heritage

Dissertasiyanın müdafiəsi 20 dekabr 2023-cü il tarixində saat 12.00 Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "13" noyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 13.11.2023.

Kağızın formatı: 60x84 1/16

Həcm: 37684 işarə

Tiraj: 100 nüsxə